**2010-cu il martın 9-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF) arasında "Uşaqların ailələrə verilməsi və alternativ qayğı ilə əhatə olunması mexanizminin yaradılması" layihəsinin həyata keçirilməsi üçün birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. 2010-cu il martın 9-da Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF) arasında "Uşaqların ailələrə verilməsi və alternativ qayğı ilə əhatə olunması mexanizminin yaradılması" layihəsinin həyata keçirilməsi üçün birgə əməkdaşlıq haqqında Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Təhsil Nazirliyinə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun həyata keçirilməsini təmin etsinlər.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Memorandumun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunu (UNICEF-i) xəbərdar etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 may 2010-cu il
№ 926

**Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNİCEF) arasında "Uşaqların ailələrə verilməsi və alternativ qayğı ilə əhatə olunması mexanizminin**

**yaradılması" layihəsinin həyata keçirilməsi üçün birgə əməkdaşlıq haqqında**

## A N L A Ş M A   M E M O R A N D U M U

Azərbaycan Respublikası Hökumətinin 1992-ci ildən qoşulduğu Uşaq Hüquqları Konvensiyasına, BMT-nin Uşaq Hüquqları Komitəsinin Azərbaycana dair 2006-cı il 17 mart tarixli Yekun Tövsiyələrinə, Minilliyin Bəyannaməsinə (MB) və Minilliyin İnkişaf Məqsədlərinə (MİM), habelə BMT Baş Məclisinin 2002-ci ildə qəbul etdiyi "Uşaqlar üçün yararlı dünya" Bəyannaməsinə və Fəaliyyət Planına, Azərbaycan Respublikasının Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (bundan sonra - UNİCEF) arasında 2002-ci ildə imzalanmış əməkdaşlığa dair Əsas Sazişə əsaslanaraq, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və UNİCEF "Uşaqların ailələrə verilməsi və alternativ qayğı ilə əhatə olunması mexanizminin yaradılması" layihəsinin həyata keçirilməsində birgə əməkdaşlıq haqqında aşağıdakılar barədə razılığa gəldilər.

### I. Anlaşmanın prinsipləri və mahiyyəti

Anlaşma Memorandumunun əsas prinsipi uşaqların ailələrə verilməsi və alternativ qayğı ilə əhatə olunması mexanizminin yaradılması istiqamətində üzərinə götürdükləri öhdəliklər əsasında Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və UNİCEF arasında əməkdaşlığın qurulmasıdır.

Memorandumun əsas mahiyyəti aidiyyəti qurumlar üzrə layihənin planlaşdırılması, maliyyə dəstəyi və texniki dəstək göstərərək, onun icra olunması istiqamətində müvafiq vəzifələrin həyata keçirilməsindən ibarətdir.

### II. Azərbaycan Respublikası Təhsil Nazirliyinin öhdəlikləri

Azərbaycan Respublikasının Təhsil Nazirliyi Dövlət Proqramının həyata keçirilməsində əsas icraçı təşkilat olaraq layihənin planlaşdırılması, ona şərait yaradılması və həyata keçirilməsinə maliyyə dəstəyi və texniki dəstək göstərərək, aşağıdakı vəzifələri həyata keçirəcəkdir:

pilot layihənin əlaqələndirilməsi;

uşaqların müəssisəyə düşməsinin qarşısının alınması;

seçilmiş pilot rayonlarda Dövlət Uşaq Müəssisələrinin Transformasiyası üzrə Baş Plana uyğun olaraq ailələrə dəstək xidmətlərinin təşkili və yaradılması;

təhsildən kənarda qalan və sağlamlıq imkanları məhdud olan uşaqların təhsilə cəlb edilməsi;

müəssisələrdə yaşayan uşaqların fərdi qayğı planının işlənib hazırlanması və alternativ qayğıya cəlb edilməsi;

uşaqların sosial yönümlü xidmətlərə yönəldilməsi üçün mexanizmin yaradılması;

ailələrə verilmiş uşaqların vəziyyətinə dair dövri monitorinq mexanizminin yaradılması;

pilot layihə üzrə hesabatların hazırlanması.

**III. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin öhdəlikləri**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi layihənin həyata keçirilməsinə maliyyə dəstəyi və texniki dəstək göstərərək, aşağıdakı vəzifələri həyata keçirəcəkdir:

sosial yönümlü icma əsaslı xidmətlər üzrə nümunəvi əsasnamənin hazırlanması;

sosial yönümlü icma əsaslı xidmətlərin yaradılması;

uşaqlarla işləyəcək sosial işçilərin statusunun müəyyənləşdirilməsi və onların hazırlanması;

aztəminatlı ailələr üçün sosial reabilitasiya proqramının həyata keçirilməsi;

alternativ ailələr üçün sosial müavinətlərin və maddi yardımın məbləği barədə təkliflərin hazırlanması.

**IV. Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin öhdəlikləri**

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin layihənin həyata keçirilməsinə maliyyə dəstəyi və texniki dəstək göstərərək, aşağıdakı vəzifələri həyata keçirəcəkdir:

rayonlar səviyyəsində təbliğat və maarifləndirmə işinin aparılması;

uşaq hüquqları konvensiyası barədə əhalinin məlumatlandırılması (müşavirələr, plakatlar, bukletlər);

pilot seçilmiş rayonlarda uşaqların hüquqlarının qorunmasının təmin edilməsi məqsədilə əlaqədar qurumların nümayəndələri ilə dəyirmi masaların keçirilməsi;

rayonlar səviyyəsində uşaqların müəssisələrə düşməsinin qarşısının alınması məqsədilə risk qrupuna daxil olan uşaqların valideynlərinin maarifləndirilməsi;

kütləvi informasiya vasitələrinin nümayəndələri üçün alternativ qayğı və uşaq müdafiə sistemi barədə treninqlərin keçirilməsi.

**V. UNİCEF-in öhdəlikləri**

UNİCEF, dövlət Proqramının icrasına dəstəyin tərkib hissəsi olaraq, Anlaşma Memorandumunda qeyd olunan pilot layihənin həyata keçirilməsinə öz siyasi, sərəncamında olan maliyyə dəstəyi və texniki dəstək göstərərək, aşağıdakı tədbirləri həyata keçirəcəkdir:

ölkədə uşaqların müdafiəsi sisteminin yaradılmasının vacibliyi barədə səlahiyyətli dövlət qurumları ilə təbliğat və müzakirələrin aparılmasına dəstək;

pilot layihənin icrasına cəlb olunmuş dövlət və qeyri-dövlət qurumlarının nümayəndələrinin bilik və bacarıqlarının artırılmasına dəstək;

pilot layihənin beynəlxalq ekspert tərəfindən qiymətləndirilməsi, əsas nəticələrdən və tövsiyələrdən ibarət hesabatın hazırlanması; pilot layihədən əldə olunan təcrübəyə əsasən və "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramı"nın icrasının səmərəliliyini artırmaq məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi, uşaqların müdafiəsi və uşaqlar üçün sosial xidmətlər üzrə standartlar, qaydalar da daxil olmaqla, hüquqi" sənədlərin hazırlanmasına texniki dəstəyin göstərilməsi;

uşaqların ailə mühitində böyüməsi hüququnun təmin edilməsində əsas amil hesab edilən uşaqların müdafiəsi islahatlarının məqsəd və vəzifələri haqqında ictimaiyyətin məlumatlandırılmasında iştirak;

alternativ ailələr üçün müvafiq təlimlərin keçirilməsi üçün yardım göstərilməsi, o cümlədən təlimləri keçirənlər üçün treninqlərin təşkil edilməsi.

**VI. İdarəçilik mexanizmi**

Layihənin həyata keçirilməsində digər tərəfdaşların fəaliyyətlərinin əlaqələndirilməsi üçün Azərbaycan Respublikasının Təhsil Nazirliyi məsuliyyət daşıyır. Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan,

Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və UNİCEF, hər tərəfdən bir nəfər olmaqla, layihənin idarə edilməsi üçün səlahiyyətli nümayəndələr ayırır. Həmin nümayəndələr rübdə bir dəfə olmaqla, görüş keçirir və hər görüşdən sonra rəhbərliklərinə yazılı hesabat təqdim edirlər.

**VII. Mübahisələrin həlli mexanizmi**

Tərəflər arasında yaranan mübahisəli məsələlər danışıqlar, məsləhətləşmələr əsasında Azərbaycan Respublikasının milli qanunvericiliyinə uyğun olaraq həll edilir.

**VIII. Anlaşma Memorandumuna dəyişikliklər edilməsi**

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Anlaşma Memorandumuna dəyişikliklər edilə bilər və bu dəyişikliklər Memorandumun IX bəndində göstərilən qaydada qüvvəyə minir.

**IX. Qüvvəyəminmə**

Bu Anlaşma Memorandumu imzalandığı gündən qüvvəyə minir və iki il müddətinə bağlanır.

Bu Anlaşma Memorandumu Azərbaycan və ingilis dillərində imzalanır və hər iki sənəd eyni hüquqi qüvvəyə malikdir.

Bu Anlaşma Memorandumu 2010-cu il 9 mart tarixində Bakı şəhərində imzalanmışdır.

**Azərbaycan Respublikasının**
**Təhsil Nazirliyi adından**

**Misir MƏRDANOV**

**Azərbaycan Respublikasının**
**Əmək və Əhalinin Sosial**
**Müdafiəsi Nazirliyi adından**

**Füzuli ƏLƏKBƏROV**

**Azərbaycan Respublikasının Ailə,**
**Qadın və Uşaq Problemləri üzrə**
**Dövlət Komitəsi adından**

**Hicran HÜSEYNOVA**

**BMT-nin Uşaq Fondu**
**(UNİCEF) adından**

**Mark HEREWARD**